# Münafiqun surəsi; 2 (Münafiq Quranı şərh edib, alimlərin sözlərini təhrif edib öz məqsədinə uyğun hala gətirərək müsəlmanlara hücum edər.)

ADNAN OKTARIN SAMSUN AKS TV VƏ TV KAYSERİDƏKİ CANLI REPORTAJI (3 OKTYABR 2010)

**ADNAN OKTAR: "Onlar andlarını sipər edib insanları Allah yolundan döndərdilər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir!" (Munafiqun surəsi, 2)**

Bax, münafiqlərin sipərə ehtiyacı var, Quran buna diqqət çəkir. Sipər, and; and nədir? Allahı xatırlamaq. Münafiq nə edər? Quranı sipər edər, hədisi sipər edər, İslam alimlərini sipər edər. Onların arxasından müsəlmanlara yaxınlaşar və müsəlmanlara hücum edərkən də Quranı şərh edərək, alimlərin sözlərini təhrif edərək və öz məqsədinə uyğun hala gətirərək hücum edər. Peyğəmbərimiz (s.ə.v.) zamanında elə idi. Quran ilə hərəkət edirdilər. Amma Quranı istifadə edərkən dillərini əyib bükürdülər. Yəni ayədə də o ifadə edilir. "Dillərini əyib bükərlər" deyir. Yəni öz mənfəətinə uyğun hala gətirir. Məsələn, deyir ki, Peyğəmbərimiz (s.ə.v); "cihada çıxaq; təbliğ etməyə, İslamı yaymağa" "Ya Rəsulullah (ə.s), ayə var" deyir "analarınız, oğullarınız". Məsələn, "Allah evlənin deyir" deyir "ayə var" "Yaxınlarınızı qoruyun deyə ayə var, əgər icazə versəniz, mən bu ayəni tətbiq etmək istəyirəm" deyir. Yaxşı, cəhd nəyi əmr edir? Bütün müsəlmanları qurtarmağı əmr edir. O nə deyir? "Mən ailəmi qurtarmaq istəyirəm" deyir. Ailəni niyə qurtarmaq istəyirsən? "Çünki miras qalacaq, yemək bişirəcək, gedib yatacaq, rahatlayacaq, onu təhlükələrdən qoruyacaq. Cəhddə nə var? Təhlükə var, ac qalmaq var, susuz qalma var, yaralanma var, həbs edilmə var. Münafiq bunu istəməz. Münafiq onsuz da Allaha xidmət etmək istəməz, dinə xidmət etmək istəməz. Onun üçün də bu tərz bir stil yaradır.

https://www.harunyahya.info/az/meqaleler/munafiqun-suresi-2-munafiq-qurani-serh-edib-alimlerin-sozlerini-tehrif-edib-oz-meqsedine-uygun-hala-